# Otuz illik işğala son qoyduq!



**Bu, tarixi bir qələbədir. Bu qələbənin müəllifi – qəhrəman Ali Baş Komandan İlham Əliyevdir. Əsrə bərabər 44 günlük əzmli mübarizəmizin nəticəsində işğal altındakı torpaqlarımızın ard-arda azad edilməsindən sonra, noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin, Rusiya Prezidenti Vladimir Putinin və Ermənistan baş nazirinin birgə imzaladıqları üçtərəfli bəyanat Azərbaycanın qəti qələbəsi, Ermənistanın isə tam məğlubiyyəti deməkdir. Bu üçtərəfli bəyanat həm hərbi, həm siyasi, həm də diplomatik qələbə deməkdir.**

İmzalanan bəyanat Azərbaycanın şərtlərini əks etdirən mükəmməl bir sənəddir. Biz Laçını, Kəlbəcəri və Ağdamı döyüş olmadan, şəhid vermədən, qan tökmədən azad edirik. Bu bəyanatla Dağlıq Qarabağ statussuz qaldı. Azərbaycanın ərazi bütövlüyü təmin edildi. 9 bənddən ibarət olan bu bəyanatda əsas məqamlardan biri ondan ibarətdir ki, Dağlıq Qarabağın ətrafındakı rayonlarımızın 20 gün ərzində işğaldan azad edilməsini Ermənistan rəhbərliyi öz imzası ilə təsdiqlədi. Əhəmiyyətli məqamlardan biri də Dağlıq Qarabağın statusu ilə bağlı məsələnin gündəmdən çıxarılması oldu. Yəni, Dağlıq Qarabağ birmənalı şəkildə Azərbaycanın tərkib hissəsi kimi qəbul olunur. Digər tərəfdən, önəmli olan başqa bir məsələ də Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsinin quru əlaqəsinə təminat verən razılaşmadır.

Bu razılaşmaya əsasən, Ermənistandan keçməklə Naxçıvanla Azərbaycanın əsas hissəsi arasında dəhliz təmin edilir. İndi qalır razılaşmaların necə həyata keçirilməsi və ona nə dərəcədə əməl olunması. Əlbəttə, bu amil də sülhün bərqərar olmasında böyük əhəmiyyət daşıyır. Elə bu səbəblə də sülhməramlı mərkəz yaradılır. Bu mərkəz monitorinq funksiyasını daşıyacaq. Bu məqsədlə yaradılan mərkəzdə rus hərbçiləri ilə yanaşı, Türkiyə hərbçilərinin də iştirakı olduqca əhəmiyyətlidir və bunun özü də Azərbaycanın maraqlarını əks etdirən vacib bir məqamdır. Türkiyə hərbçilərinin prosesdə iştirakı ona dəlalət edir ki, Azərbaycanın maraqlarının əleyhinə hər hansı addımın atılmasının qarşısı alınacaq.

Biz tariximizin ən möhtəşəm, parlaq səhifələrini yazdıq və yazmaqda davam edirik. Xalq böyük bayram içərisindədir. Xalq böyük xoşbəxtlik hissləri yaşayır. Xalq Prezidentinə, ordusuna minnətdardır. Bu gün Azərbaycanda xalq – ordu – Prezident vəhdəti özünün ən yüksək zirvəsindədir. İndi qarşıda bizi böyük işlər gözləyir. Ermənistan və onun ordusu tərəfindən dağıdılmış, yerlə-yeksan edilmiş yaşayış məskənlərimizdə sürətlə abadlıq, quruculuq işləri həyata keçirəcəyik. Vətənimizin ayrılmaz parçası olan cənnət Qarabağımıza tarixi simasını qaytaracağıq. Bu qədimliyə sadiq qalaraq onu daha müasir, daha möhtəşəm layihələrlə bəzəyəcəyik. Sakinlər öz torpaqlarına, yurd-yuvalarına qayıdacaqlar. Toy-bayramlar olacaq o torpaqlarda. Olacaq! Əlbəttə olacaq! Bütün bunlar olacaq!

Amma bu möhkəm əminliyi laxlatmaq əzmində olan, möhtəşəm qələbəmizə kölgə salmaq istəyən, bütün zamanlarda ağa qara deməkdən usanmayan ağzıgöyçəklərə də buradan səslənmək istəyirik. İnsanları çaşdırmayın! Həqiqəti çarpdırmayın! 30 ildir əyilən qəddimizi düzəltmişik. 30 ildir həsrətində olduğumuz xəbəri almışıq. 30 ildir gözümüzün yollarda qaldığı torpağa qovuşmuşuq. Azərbaycanın 30 illik işğalına birdəfəlik son qoyduq! Eşidirsinizmi?.. Qoyun, sevincimizi sona qədər yaşayaq, xoşbəxtliyimizi doya-doya dadaq. Biz gəlmişik! Biz buradayıq! Şuşadayıq, Füzulidə, Zəngilanda, Ağdamda, Ağdərədə, Qubadlıda, Cəbrayılda, Kəlbəcərdə, Xocalıda, Xocavənddə, Xankəndidə, Laçındayıq! Bu torpaqlarda artıq bizim, Azərbaycanın üçrəngli dövlət bayrağı dalğalanır və dalğalanacaq! Bax, budur əsas məsələ! Bax budur tarixi qələbə! Qarabağ artıq bizimdir! Bunu anlayın artıq!

***Jalə ƏLİYEVA,***
***Milli Məclisin deputatı, professor***